

**Süleyman Hüseynov**

## ANASIZ KƏNDİMƏ GEDƏ BİLMİRƏM

*"Ana itirmişəm ana yaşında".*

*M.Araz*

Ana itirmişəm ana yaşında,
Bu dərddən ağlayır dağım, daşım da,
Dünyanın qəmi var mənim başımda,
Anasız kəndimə gedə bilmirəm.

"Sənə qurban olum" hey söyləyərdi,
Başım ağrıyanda min "can" deyərdi,
Yolumu hər zaman o gözləyərdi,
Anasız kəndimə gedə bilmirəm.

Köçdü bu dünyadan hala yananım,
Mənə həyat verən,ürəyim, canım,
Yoxdur gözləyənim, yola salanım,
Anasız kəndimə gedə bilmirəm.

O yollar, cığırlar sıxırlar məni,
Hicranı bağlayıb bəndi, bərəni,
Qovub yolumdakı dumanı,çəni,
Anasız kəndimə gedə bilmirəm.

Tale hədəfinə mən tuş gəlmişəm,
Yetimlik nə imiş, indi bilmişəm,
Sanki cılızlaşıb, lap kiçilmişəm,
Anasız kəndimə gedə bilmirəm.

Ana itirmişəm ana yaşında,
Süfrəmdə dad vermir daha aşım da,
Get-gedə ağarır gözüm,qaşım da,
Anasız kəndimə gedə bilmirəm .

Qardaş da, bacı da vallah, sağ olsun,
Firəvan yaşasın, kefi
çağ olsun,
O yerlər istəyir cənnət bağ olsun,
Anasız kəndimə gedə bilmirəm.

Təkcə xoş nəfəsi mənə bəs idi,
Bilənlər bilir ki, müqəddəs idi,
Onsuz o ev-eşik əbəsdir indi,
Anasız kəndimə gedə bilmirəm.

Səliqə-səhman da əvvəlki deyil,
Yadlaşıb bu doğma ocaq elə bil,
Tutulub ayaqlar, bükülübdür bel,
Anasız kəndimə gedə bilmirəm.

Ana itirmişəm ana yaşında,
Bu dərddən ağlayır dağım, daşım da,
Dünyanın qəmi var mənim başımda,
Anasız kəndimə gedə bilmirəm......

## EMİN

***Sevimli əmim oğlu, gənc alim Emin Hüseynova ithaf edirəm.***

Tanrı hər bəndəyə bir ömür verib,
Hər ömrə yazıbdır bir tale, qismət.
Çəkdiyin zəhmətin barını dərib,
Yaşamaq-bax, budur həyatda hikmət!

Hər tale həyatda uğurlu olmur,
Ulduz tale milyon birində olur.
Tanrıdan gələn nur ürəyə dolur,
Ürəkdən nurani simaya dönür.

Müdrik bir atanın doğum günündə,
Dünyaya göz açmaq özü bir heyrət!
Həyatda ulu bir nəslin önündə,
Bayraqdar olmağın özü də qüdrət!

Atadan, babadan irəli getmək,
Gələcək yolunu çıraqban etmək,
Allahın seçimi, ruhun səsidir,
İlahi sevgisi,iradəsidir.

Sən xırda hissləri buraxma yaxın,
Bir bayraq altında birləşsin hamı!
Kökümüz bir kökdür, uzaq, ya yaxın,
Yaxşını, pisi də qəbul et, tanı!

Sənə uğur olsun bu yolda, Emin,
Bir elin ümidi sənədir,sənə!
Bayrağı möhkəm tut , addımla mətin,
Ürəklə xidmət et doğma Vətənə!